



**DİN-in şəhid çavuşu Zahir Əliyevin övladları Xankəndidə Prezidentlə, Mehriban xanımla görüşlərini heç vaxt unutmayacaqlar**

# Andına sadiq qaldı, yurdunu qorudu...

**Vətən oldu oğullar**

**1987-ci ilin soyuq bir qış günündə - yanvar ayının 4-də Azərbaycanın dilbər guşələrindən biri olan Lerik rayonunun Soru kəndində Sədi kişinin ailəsində bir oğlan uşağı dünyaya göz açdı. Körpənin adını Zahir qoydular. Bu, ailədə doğulan ilk uşaq idi. Sədi kişinin, Sumaq ananın sevinci yerə-göyə sığmırdı.**
**Zahirdən sonra ailədə altı uşaq da doğuldu - dörd qız, iki oğlan. Uşaqların atası Sədi Əliyev hərbçi idi. Keçmiş sovet ordusunun sıralarında xidmət edirdi. O, Qazaxıstan Respublikasında, Rusiya Federasiyasının bir çox şəhərində gizir hərbi rütbəsində xidməti vəzifələrini yerinə yetirirdi.**





Ölkəmiz müstəqillik qazandıqdan sonra o, yeni yaradılan Azərbaycan Ordusunda xidmət etmək üçün doğma Vətənə qayıdıb. Bir müddətdən sonra - 1993-cü ildə yaşa görə xidmətdən ehtiyata buraxılıb. Ordu sıralarından tərxis olunandan sonra keçmiş hərbçi müəllim kimi fəaliyyətini davam etdirib. Lerik rayonunun Soru kəndindəki şəhid Təhsin Cəfərov adına tam orta məktəbdə çağırışaqədərki hazırlıq fənnindən dərs deyib. Gənc nəslin, gələcəyin zabit və əsgərlərinin təlim-tərbiyəsində biliyini, bacarığını əsirgəməyib.

Zahir dünyaya gözünü açanda evdə, ailədə atasını hərbi formada görüb. Bəlkə də elə buna görə onda kiçik yaşlarından hərbçi peşəsinə sevgi, məhəbbət yaranıb. Buna görə də Zahir ordu sıralarında vətəndaşlıq borcunu yerinə yetirdikdən bir müddət sonra - 2013-cü ildə müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu kimi Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının "N" hərbi hissəsində xidmət etməyə başlayıb. 2008-ci ildə sevib-seçdiyi Aynurla ailə həyatı qurub. Bu evlilikdən Zahirin iki qız övladı - əvvəlcə Aysu, sonra isə Nilay dünyaya göz açıb.

Hərbçi atasının xidmət yolunu şərəflə davam etdirən Zahir üzərinə düşən bütün tapşırıqların öhdəsindən bacarıqla gəlib. Ermənı təxribatı nəticəsində başlanan 44 günlük Vətən müharibəsi dövründə o, Gəncə şəhəri və Göygöl rayonunda komendant postlarında xidmət aparıb. Həmin gərgin günlərdə komandanlığın tapşırıqlarını yüksək peşəkarlıqla icra edib. Vətən müharibəsi zamanı azğın düşmən Gəncəni də şiddətli raket atəşinə tutanda Zahir dağıntılar altında qalan zərərçəkmiş insanlara yardım göstərib, onların həyatını xilas edib.

## Nümunəvi xidməti ilə komandirlərinin rəğbətini qazanmışdı

Böyük Zəfərlə başa çatan 44 günlük Vətən müharibəsindən sonra çavuş Zahir Əliyev müxtəlif vaxtlarda işğaldan azad edilmiş Kəlbəcər, Zəngilan və Laçın rayonlarında təhlükəsizlik tədbirlərinin təmin olunması məqsədilə qısamüddətli ezamiyyətlərə gedib. Ezamiyyətlərdə də üzərinə düşən tapşırıqları layiqincə yerinə yetirib. Buna görə həm komandirlərinin, həm də xidmət yoldaşlarının rəğbətini qazanıb. Nümunəvi xidmətinə görə Zahir daxili işlər nazirinin 29 iyun 2022-ci il tarixli müvafiq əmri ilə 3-cü dərəcəli "Qüsursuz xidmətə görə" medalı ilə təltif olunub.

Zahir Əliyev 19 sentyabr 2023-cü ildə Qarabağda erməni separatçılarına qarşı həyata keçirilən lokal xarakterli antiterror əməliyyatında da fəal iştirak edib. Cəsur əsgər həmin gün polkovnik-leytenant Rəşad Hüseynovun komandiri olduğu xüsusi vasitələrin tətbiqi dəstəsinin hərbi qulluqçuları ilə çiyin-çiyinə döyüş tapşırığını yerinə yetirib. Təəssüflər olsun ki, Laçın rayonunun Nağdalı kəndindən Kəlbəcər rayonunun Vəngli kəndinə gedərkən gözlənilmədən yolda erməni separatçılarının hücumuna məruz qalıblar. Şəxsi heyətin igidliyi və qəhrəmanlığı sayəsində işğalçıların atəş nöqtələri susdurulub. Döyüş zamanı bir neçə əsgər yaralanıb, itki olmayıb. Vəngli kəndinə az qalmış Zahirgil yenidən düşmən pusqusuna düşüblər. Yolun hər iki tərəfində gizlənmiş separatçılar onlara aramsız atəş açıblar. Bu dəfə də qəsbkarların cavabı layiqincə verilib. Azərbaycan əsgərinin ağır zərbələrinə tab gətirə bilməyən düşmən itki verərək geri çəkilib. Amma təəssüflər olsun ki, bu qeyri-bərabər döyüşdə Zahir və bir neçə döyüşçü yoldaşı şəhid olub. Əməliyyat zamanı Zahir düşmənin atəş nöqtələrini susduraraq üzərinə düşən tapşırığı sonadək şərəflə yerinə yetirib.

Şəhid Zahir Əliyev 21 sentyabr 2023-cü ildə dünyaya göz açdığı Lerik rayonunun Soru kəndinin qəbiristanlığında torpağa tapşırılıb. Azərbaycan Respublikası Prezidentinin 7 noyabr 2023-cü il tarixli sərəncamları ilə çavuş Əliyev Zahir Sədi oğlu ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni və "Vətən uğrunda" medalı ilə təltif edilib.

Bu günlərdə şəhid Zahir Əliyevin ailəsinin yaşadığı Abşeron rayonunun Ceyranbatan qəsəbəsinə getdik. Şəhidin həyat yoldaşı Aynur Mürsəlovla, qızları Aysu və Nilayla, qardaşları Zamiq Əliyevlə və Vilayət Əlizadə ilə görüşüb söhbət etdik. Daha çox Zahirli günlərdən danışdılar, onun xatirəsini hörmətlə andılar. Söhbətimiz onun şəhid olduğu gündən uşaqlığına qədər uzanıb getdi.

Zamiq Əliyev dedi: "Biz valideynlərimizi erkən itirmişik. İtkilər həmişə ağır olur. O ki qaldı qardaş itkisi ola. Zahir bizə həm böyük qardaş, həm də ata əvəzi idi. Onun qəfil ölümü bizi çox sarsıtdı. Sanki atamızı ikinci dəfə itirdik. Təskinliyi yalnız onda tapırıq ki, Zahir erməni işğalçıları ilə döyüşdə, yurdumuzun azadlığı uğrunda gedən antiterror əməliyyatında şəhid olub. Ondan yadigar qalmış iki balasını göz bəbəyimiz kimi qoruyuruq. Zahiri kəndimizdəki qəbiristanlıqda, valideynlərimizin yanında dəfn etdik. Məzarının üstündə heykəlini qoymuşuq. Kənddə onların xatirəsinə abidə-bulaq kompleksi də tikilib. Kəndimizdəki orta məktəbdə Zahirə həsr olunmuş fotostend hazırlanıb. Rayonun Əliabad kəndinə gedən yolun kənarında quraşdırılan şəhidlərin plakatlarında Zahirin də şəkli var. Yaşadığımız Ceyranbatan qəsəbəsində qardaşımın plakatı quraşdırılıb. Gələnlər, görənlər onun qəhrəmanlığı qarşısında baş əyir, adını ehtiramla çəkirlər. Biz onun qəhrəmanlığı ilə həmişə fəxr edib öyünəcəyik".

- Qardaşım mənim üçün dünyanın ən əziz adamıdır, - deyə Zahirin kiçik qardaşı Vilayət Əlizadə söhbətimizə qoşuldu. - O, çox mehriban, qayğıkeş insan idi. Bütün çətin işlərimizdə qardaşım vəziyyətdən çıxmaq üçün bizə düzgün yol göstərər, ağıllı məsləhətlər verərdi. Təəssüflər olsun ki, onu çox tez itirdik. Mənim üçün Zahir ölməyib və heç vaxt da ölməyəcək.

## Ömrü kimi arzuları da yarımçıq qaldı

Həyat yoldaşı Aynur Mürsəlova onu göz yaşları içində xatırlayaraq dedi: "Zahirlə biz həm də yaxın qohumuq. Toyumuz 2008-ci ildə Bakı şəhərindəki "Qismət" şadlıq sarayında olmuşdu. Görünür, bizim də qismətimiz belə yazılıbmış. 17 il bir yerdə yaşadıq. Onunla yaşadığım illəri ömrümün ən gözəl çağları hesab edirəm. İki övladımız dünyaya gəldi. Onların boyunu sevə-sevə böyüdürdük. Yoldaşımın övladlarımıza bağlı ürəyində arzuları çox idi. Təəssüf ki, Zahir torpaqlarımızın azadlığı uğrunda gedən döyüşdə şəhid oldu. Ömrü kimi arzu və istəkləri də yarımçıq qaldı. İndi çiyinlərimə böyük vəzifə düşür. Gərək Aysunu, Nilayı bir vaxtlar onun ürəyindən keçdiyi kimi böyüdüm.

Biz Gəncə şəhərində yaşayırdıq. 44 günlük Vətən müharibəsində erməni işğalçıları bu gözəl şəhərimizi də raket atəşinə tutdu. Neçə-neçə günahsız insan bu raketlərin qurbanı oldu. Çox gərgin günlər yaşadıq. Şükürlər olsun ki, ordumuz İkinci Qarabağ müharibəsində qalib gəldi, 30 ilə yaxın düşmən tapdağında qalmış torpaqlarımız işğaldan azad olundu. Həmin günlərdə Zahir gecə-gündüz postlarda dayanır, xidmət aparırdı. Zahirlə son görüşümüz ötən il sentyabr ayının 18-də oldu. Onları Qarabağa erməniləriə döyüşə aparırdılar. Dönə-dönə uşaqları mənə tapşırdı. Sanki ölümü əvvəlcədən ona həyan olmuşdu. Ertəsi gün isə qapımızı onun şəhid olduğu xəbəri döydü. Həmin gün bütün varlığımla sarsıldım. Zahir çox vətənpərvər insan idi. Elə Vətən uğrunda da şəhid oldu. Çalışacam ki, Zahirin yadigarlarını onun qəhrəmanlığına, igidliyinə layiq böyüdüm".

Şəhidin qızları Aysu və Nilayla da söhbət etdik. Onların ikisi də Ceyranbatan qəsəbəsində yerləşən Qubadlı rayon 21 nömrəli İsa Məmmədov adına Aşağı Mollu kənd orta məktəbində oxuyur. Zahirin böyük qızı Aysu səkkizinci sinifdə təhsil alır. Dediyinə görə, dərslərini yaxşı oxuyur. "Həm texniki, həm də humanitar sahəyə böyük marağım var. Biliklərimi artırmaq üçün kitablardan ayrılmıram. Biliklərim artdıqca dünyagörüşüm də formalaşır. Həyatı daha da dərindən anlayıram. Müəllimlərimdən də çox razıyam. Onlar bizə bilik vermək üçün düzgün yol göstərir, dəyərli məsləhətlər verirlər."

## Şəhidin övladları üçün ev tikilir

Aysu atası haqqında kövrələ-kövrələ danışdı. Dedi ki, atası torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə şəhid olub: "Atam yaddaşımda cəsur, qorxmaz, qəhrəman bir insan kimi qalıb. Onu həmişə belə xatırlayacaq, belə anacağam. Arzum budur ki, böyüyəndə mən də Daxili İşlər Nazirliyinin heyəti sıralarında polis kimi xidmət edim. İstəyimə çatmaq üçün daim öz üzərimdə çalışır, hazırlığımı artırıram.

Zahirin kiçik qızı Nilay dördüncü sinifdə oxuyur. Söhbətimiz zamanı Nilay da dərslərini yaxşı oxuduğunu söylədi. Müəllimləri Simarə xanımdan xeyli razılıq etdi. Dedi ki, müəllim dərsləri bizə çox maraqlı keçir. Nilayla söhbət edəndə onu da öyrəndik ki, o, 2023-cü il dekabrın 21-də Xankəndidə keçirilən və o zamanlar maraqla baxdığımız Ağdamın "Qarabağ" və Bakının MOİK komandaları arasında keçirilən futbol yarışında Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva ilə görüşüb, xatirə şəkli çəkdirib. Həmin gün olduğu kimi Nilayın yaddaşında qalıb. Deyir ki, mən o günü heç vaxt unutmayacağam. Həm Prezident İlham Əliyevlə, həm də Birinci vitse-prezident Mehriban Əliyeva ilə çəkdirdiyim xatirə şəklini böyüdüb evimizin divarından asmışam. Hər gün bu şəklə baxıb həmin yaddaqalan günü xatırlayıram.

Nilay atasından da danışdı. Dedi ki, onu çox istəyir. Çünki o qəhrəmandır, igiddir, cəsurdur. Döyüşlərdə düşmənləri öldürərək Qarabağı azad edib. Evdə onun adına guşə düzəldiblər. Hər gün səhər-səhər yuxudan oyananda onun şəkilləri ilə "görüşür". Atanın məzarını ziyarət etmək üçün tez-tez Soru kəndinə, dəfn olunduğu qəbiristanlığa gedir. Onun məzarı üzərinə güllər, çiçəklər qoyur. Amma onu da deyir ki, atasının dəfn olunduğu qəbiristanlığa gedən yollar çox narahatdır. Hər dəfə ziyarətə gedəndə əziyyət çəkir. Əgər o yolu asfaltlayıb düzəltsələr, atasının məzarını çox rahat ziyarət edər. Nilay söhbət zamanı arzularından da söz açdı. Dedi ki, böyüyəndə atası kimi hərbçi olacaq. Onun yarımçıq qalmış xidmət yolunu davam etdirəcək.



Söhbətimizi tamamlayan ərəfədə Zamiq dedi ki, qardaşıma Ceyranbatan qəsəbəsində ev tikirik. Artıq birinci mərtəbəsi hazırdır. Şəhidin övladları üçün tikilən evə də baş çəkdik. Həyətin giriş qapısının üstündən yurdumuzun azadlığı uğrunda şəhid olmuş Zahir Əliyevin şəkli asılıb, yanından da üçrəngli bayrağımız dalğalanır. Sanki Zahirin şəkli övladları üçün tikiləcək evə, həyətə keşik çəkir. Bir müddətdən sonra tikinti işləri başa çatacaq. Şəhid uşaqları Aysu və Nilay bu evdə, bu həyətdə diqqət və qayğı altında firavan böyüyəcək və ürəklərində dolaşan arzularına çatacaqlar.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

Azərbaycan. - 2024.- 20 sentyabr (№205).- S.14.